AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyasi.com
www.olimpnews.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 1 (1503), 11 - 17 yanvar 2022-ci il
Qəzet 2001-ci ildən çıxır.



## Fərid Qayıbov: “Federasiyaların işi təhlil edildi, nöqsan və problemlər səsləndirildi”

“Nazir kimi fəaliyyətimin dördüncü ayı ötən ilin sonuna təsadüf etdi. Hesabat ayında ölkənin Şimal-Qərb və Dağlıq Şirvan bölgəsinə səfər çərçivəsində Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, Şəki, İsmayıllı, Şamaxı, Qobustan Olimpiya kompleksləri və digər idman qurğularının fəaliyyətləri ilə tanış olduq. Müxtəlif idman növləri üzrə bölmələrin məşq proseslərini izlədik, idmançılarla görüşdük, məşqçi-müəllimlərlə fikir mübadiləsi aparıb, onların problemləri ilə maraqlandıq. Bu idman qurğularının potensialından, xüsusən də üzgüçülük hovuzlarından səmərəli istifadə imkanlarını müzakirə etdik”.

Bunu gənclər və idman naziri Fərid Qayıbov qurumun rəsmi saytındakı məqaləsində yazıb.

O, hesabatında ay ərzində bir neçə federasiyalarda hesabat seçki-konfranslarının təşkil olunduğunu bildirib: “Güləş, badminton, basketbol, atıcılıq, triatlon, avarçəkmə, stolüstü tennis və taekvondo federasiyalarının hesabat-seçki yığıncaqları keçirildi. Federasiyaların işi təhlil edildi, nöqsan və problemlər səsləndirildi, növbəti dövr üçün məqsəd və vəzifələr müəyyən olundu. Yeni rəhbərlik və seçilmiş idarə heyətləri ilə birlikdə regionlarda işin genişləndirilməsi, kütləviliyin artırılması, nəticələrə əsaslanan fəaliyyətin təşkili barədə müzakirələr aparıldı.

Stolüstü Tennis və Atçılıq federasiyalarında vəziyyətlə tanış olduq, Pauerliftinq Federasiyası milli yığma komandasının təlim-məşq bazasının açılışında iştirak etdik.

Uğur qazanmış idmançılar da diqqət mərkəzindədir - onlar Azərbaycanı layiqincə təmsil edir, arxasınca onlarla gənci idmanla məşğul olmağa səsləyirlər. Ötən ay həmçinin, şahmat, reqbi, MMA və digər növlər üzrə idmançı və mütəxəssislərlə görüşlərdə idman potensialımızın imkanlarını müzakirə etdik”.

Fərid Qayıbov keçirdiyi beynəlxalq görüşlər barədə də məlumat verib: “Beynəlxalq əməkdaşlıq sahəsində də bir sıra görüşlərimiz oldu. Malayziyanın, Kubanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri ilə görüşlər keçirdik, ölkəmizdə səfərdə olan Beynəlxalq Boks Assosiasiyasının və Avropa Şahmat İttifaqının prezidentlərini, Dünya Etnosport Konfederasiyası və Beynəlxalq Abilimpiya Federasiyasının nümayəndələrini qəbul etdik”.

Fərid Qayıbov həmçinin, Milli Olimpiya Komitəsinin vitse-prezidenti seçilməsinə də toxunub: “Bu, ictimai fəaliyyətimdə daha bir pəncərənin açılması ilə yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Olimpiya Hərəkatına töhfə vermək baxımından da qarşımıza yeni məqsədlər qoyur. İnanıram ki, inamla, diqqətlə və ümidlə görülən işlər təmsil etdiyimiz hər iki sahənin inkişafında faydalı olacaq. Yeni ildə gənclərimizə və idmançılarımıza möhkəm can sağlığı, əzmkarlıq, inam və yeni nailiyyətlər arzulayıram”.

## 2021-ci il Azərbaycan idmanı üçün mühüm uğurlarla zəngin oldu

Gənclər və İdman Nazirliyi 2021-ci ilin idman yekunları ilə bağlı məlumat yayıb. Məlumatda həyəcanlı və xoş anları ilə yaddaşlara yazılan 2021-ci ilin idman dünyası üçün bir çox əlamətdar hadisələrlə zəngin olduğu vurğulanıb. Ötən il dünya idmanı üçün ən mühüm hadisənin 2020-ci ildən təxirə salınmış Tokio Yay Olimpiya və Paralimpiya oyunlarının keçirilməsi olduğu bildirilib. Qeyd edilib ki, dünyanı cənginə alan pandemiya idmana və Olimpiya hərəkatına mane ola bilmədi. Azərbaycan 44 idmançı ilə qatıldığı Olimpiadadan 3 gümüş, 4 bürünc olmaqla 7 medalla qayıtdı. Paralimpiyaçılarımız isə möhtəşəm çıxışları ilə tarix yazdılar. Bu mötəbər yarışda 14 qızıl, 1 gümüş və 4 bürünc medala sahib olan komandamız ölkələrin sıralamasında ilk onluğa daxil olmaqla, Paralimpiya tariximizin ən böyük uğurunu qazandılar.

Məlumatda bildirilib ki, futbol üzrə Avropa çempionatının final mərhələsi də bir il təxirə salındıqdan sonra Bakı da daxil olmaqla 11 şəhərdə təşkil edildi və Azərbaycan futbol azarkeşləri paytaxtımızda qrup mərhələsinin 3 və dörddəbir finalın bir oyununu tribunalardan canlı izləmək imkanı qazandılar.

(ardı 2-ci səhifədə)

## Paytaxtımız dünya kubokuna ev sahibliyi edəcək



Beynəlxalq Atıcılıq İdmanı Federasiyasının yeni mövsüm üçün təqvimi açıqlanıb. Beynəlxalq federasiyanın rəsmi saytında yer alan məlumata görə, bu il keçirilməsi nəzərdə tutulan reytinq yarışlarından birinin - güllə və stend atıcılığı üzrə dünya kuboku yarışının Bakıda keçirilməsi planlaşdırılır. Paytaxtımızda təşkil olunacaq turnir mayın 29-dan iyunun 6-dək davam edəcək.

Qeyd edək ki, pandemiya səbəbindən turnir ötən il keçirilməyib.

## Çin Şimali Koreyanın Pekin-2022-dən imtina etməsinə münasibət bildirib

Çin Xarici İşlər Nazirliyinin nümayəndəsi Van Venbin Koreya Xalq Demokratik Respublikasının (KXDR) fevralın 4-22-də Pekində keçiriləcək Qış Olimpiya Oyunlarında iştirak etməməsinə münasibət bildirib.

V.Venbin Çin və Şimali Koreya arasında dostluq münasibətinin olduğunu qeyd edib. “Biz Qış Olimpiya Oyunlarının hazırlığına başlayanda KXDR dəstəyini əsirgəmədi. Müəyyən səbəblərdən KXDR olimpiadada iştirak edə bilməyəcək. Çin hökuməti bunu anlayışla qarşılayır. Ölkələrimiz digər sahələrdə olduğu kimi, idman sahəsində də əməkdaşlığı bundan sonra genişləndirəcək”, - deyə Van Venbin deyib.

Qeyd edək ki, Şimali Koreya bir müddət əvvəl çinli həmkarlarına “ağ olimpiada”dan imtina etmək haqqında məktub da ünvanlamışdı.

Məktubda bildirilirdi ki, Şimali Koreya dövləti “düşmən qüvvələrin hərəkətləri” və koronavirus pandemiyası səbəbindən oyunlarda iştirak etməyəcək.

Şimali Koreya Olimpiya Komitəsi bununla belə, məktubda Pekin-2022-nin təşkil edilməsi ilə bağlı Çin hökumətini tam dəstəkləyəcəyini bildirmişdi.

Xatırladaq ki, Şimali Koreya Tokio-2020 Yay Olimpiya Oyunlarında da iştirak etməmişdi.

## Fiqurlu konkisürmə üzrə Avropa çempionatı start götürüb

Estoniyanın paytaxtı Tallində fiqurlu konkisürmə üzrə Avropa çempionatı start götürüb.

Yanvarın 16-dək davam edəcək çempionatda ölkəmiz 4 idmançı ilə təmsil olunur. Şəxsi yarışlarda Yekaterina Ryabova və Vladimir Litvintsev gücləri sınayırlar. Yekaterina Kuznetsova - Aleksandr Kolosovski dueti cütlüklərin yarışında mübarizə aparırlar. Cütlüyümüz ilk dəfə qitə çempionatında çıxış edir.

Qeyd edək ki, Y.Ryabova və V.Litvintsev ölkəmizi Pekin-2022 Qış Olimpiya Oyunlarında da təmsil edəcəklər.

İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik
olimpiyadunyasi.com onlayn qəzetindən oxuyun




## Anons

### “Neftçi İdman Klubu” 2021-ci ili böyük uğurlarla başa vurub
Səh. 4-5

### “İdman güc mübarizəsindən ağıl və ruh mübarizəsinə keçib”
Səh. 6

### Futbol öz gözəliyi ilə bu yeni ildə də zövqümüzü oxşayacaq
Səh. 7

# 2021-ci il Azərbaycan idmanı üçün mühüm uğurlarla zəngin oldu

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın dünya və qitə miqyaslı turnirlərə ev sahibliyi etməsi artıq ənənəvi hal alıb. Bu il cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri, aerobika və batut gimnastikası üzrə dünya çempionatları, 28-ci dünya yaş qrupları yarışları, şahmat üzrə Vüqar Həşimov Memorialı, Formula 1 Azərbaycan Qran-Prisi, paracüdo üzrə Qran-Prisi kimi yarışlar da Azərbaycanın yüksək təşkilatçılıq etdiyi növbəti tədbirlər kimi tarixə yazıldı. Ümumiyyətlə, bu il ölkəmiz 15 beynəlxalq yarışa ev sahibliyi edib.

Qeyd olunub ki, ötən il müxtəlif növlər üzrə yığma komandalarımız 92 təlim-məşq toplanışına cəlb ediliblər. Milli komandalarımız 182 beynəlxalq yarışa qatılıblar. Pandemiya qaydalarına riayət etməklə, Bakıda və ölkəmizin müxtəlif şəhər və rayonlarında 57 respublika miqyaslı idman yarışı təşkil edilib. İdmançılarımız il ərzində qitə və dünya çempionatlarında, kubok yarışlarında, Qran-Pri və digər nüfuzlu beynəlxalq yarışlarda uğurla çıxış edərək Azərbaycan üçün 519 medal qazanıblar. Onlardan 227-si Olimpiya (62 qızıl, 62 gümüş, 103 bürünc) və 292-si isə qeyri-Olimpiya (117 qızıl, 85 gümüş, 90 bürünc) növlərinin payına düşür.

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmana qayğı və diqqətini əks etdirən məqamlardan biri də idmançıları və bu sahədə çalışanları dövlət mükafatları, fəxri adlarla təltif etməsidir. İl ərzində dövlətimizin başçısı idman sahəsinə aid 11 Sərəncam imzalayıb.

2021-ci ildə bir sıra yeni idman mərkəzləri istifadəyə verilib. Azərbaycan Prezidentinin iştirakı ilə Goranboy Olimpiya İdman Kompleksinin və Şamaxı şəhər stadionunun açılışı, həmçinin Milli Gimnastika Arenasının yeni məşq binasında, Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanışlıq olub. Dövlətimiz başçısının futbol tariximizdə ilk dəfə UEFA Konfrans Liqasının pley-off mərhələsinə yüksələn "Qarabağ" klubunun üzvlərini qəbul etməsi və həmin gün imzaladığı Sərəncamla kluba maliyyə dəstəyi göstərməsi idmana dövlət qayğısının növbəti nümayişi oldu.

Ölkəmizin idman həyatında mühüm hadisələrdən biri də Azərbaycan Prezidentinin 2021-ci il 7 sentyabr tarixli Sərəncamı ilə Fərid Qayıbovun gənclər və idman naziri vəzifəsinə təyin edilməsi oldu. Dövlətimizin başçısı həmin gün gənclər siyasəti və idmanın inkişafı ilə bağlı bir sıra tapşırıq və tövsiyələrini verdi. Həmin tapşırıqların icrası, o cümlədən bədən tərbiyəsinin kütləviliyi, idmanın inkişafı bu gün Gənclər və İdman Nazirliyinin fəaliyyətində prioritet məsələdir.

Ötən müddətdə bir çox idman federasiyalarında görüşlər keçirilib, həmin qurumların fəaliyyətləri ilə bağlı müzakirələr aparılıb.

Zəfər Günü münasibətilə Dənizkənarı Milli Parkda "Qürurla irəli!" şüarı ilə təşkil edilmiş "Qələbə qaçışı" həm əlamətdar, həm də kütləvi yarış kimi cəmiyyətdə rəğbətlə qarşılandı. Ölkəmizin əksər bölgələrindən, müxtəlif yaş kateqoriyalarından olan insanlar qaçışa qoşularaq həmrəylik nümayiş etdirdilər. İştirakçılar "YAŞAT" Fonduna ianə etməklə Qarabağın düşmən işğalından azad edilməsində canından keçmiş şəhidlərimizin ailələri və qazilərimizin sosial müdafiəsinə dəstək oldular. Daha bir xeyriyyə tədbiri - "Unutma, YAŞAT" futbol turniri də böyük maraqla qarşılandı. Gənclər və idman sahələrində çalışan 1000-dək insanı bu nəcib təşəbbüs ətrafında bir araya gəldi.

Olimpiya ili başa çatdığı üçün və eləcə də bir çox idman federasiyalarının nizamnamələrinə uyğun olaraq, bu ilin noyabr-dekabr aylarında cüdo, üzgüçülük, qılıncoynatma, şahmat, voleybol, velosiped idmanı, güləş, badminton, basketbol, atıcılıq, triatlon, avarçəkmə, stolüstü tennis və taekvondo federasiyalarının hesabat-seçki konfransları təşkil olundu. Həmin federasiyaların ötən Olimpiya dövrü üçün hesabatları dinlənildi və yeni seçkilər keçirildi.

Ən mühüm hadisələrdən biri də Ağdamda "İmarət" stadionunun yenidən inşa olunması ilə bağlı qərarın qəbuludur. Prezident İlham Əliyevin "Şuşa ili" elan etdiyi 2022-ci ildə ilk addım kimi həmin stadion yenidən inşa olunacaq.



## Fərid Qayıbov Heydər Əliyev adına İdman Konsert Kompleksində yaradılan şəraitlə tanış olub

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov Heydər Əliyev adına İdman Konsert Kompleksinin fəaliyyəti ilə tanış olub. Nazir burada yaradılmış şəraitlə maraqlanıb, fitnes zalına baxış keçirib.

Kompleksdə "Zabit Səmədov" döyüş klubunda məşqləri izləyən nazir idmançılar və məşqçilərlə görüşərək fikir mübadiləsi aparıb, hazırlıq prosesi ilə maraqlanıb.

Zabit Səmədov rəhbərlik etdiyi klubun fəaliyyəti barədə məlumat verib. F.Qayıbov idmançıların beynəlxalq yarışlara hazırlığı ilə maraqlanıb və MMA klublarımızın birgə fəaliyyətinə dair tövsiyələr verib.

Görüşdə nazir müavini Mariana Vasileva, idman şöbəsinin müdiri Elnur Məmmədov və kadr hazırlığı sektorunun baş məsləhətçisi Ramil Cabbarov da iştirak ediblər.

## Olimpiya növləri üzrə federasiya rəsmiləri və milli komandaların məşqçiləri ilə görüş keçirilib

Yanvarın 8-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Olimpiya idman növləri üzrə federasiyaların rəhbər şəxsləri və milli komandaların məşqçilərinin ümumi yığıncağı keçirilib.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) akt zalında keçirilən tədbirdə gənclər və idman naziri Fərid Qayıbov yığıncağın gündəliyinə əsasən, federasiya rəsmilərinin və mütəxəssislərin qaldırdıqları problemləri və təklifləri dinləyib, onların iş planları, proqramları ilə maraqlanıb.

Tədbirdə Tokio-2020-yə hazırlıq prosesinin və nəticələrin təhlili, Paris Yay Olimpiya Oyunlarına hazırlıq planları, federasiyaların strateji inkişaf planlarının, istiqamətlər üzrə inkişaf proqramlarının tərtib edilməsi, milli komandaların hazırlığı və yarışlara iştirakı, maddi-texniki bazadan səmərəli istifadə, federasiyaların beynəlxalq əlaqələri, maliyyə, marketinq fəaliyyəti, sponsorların cəlb olunması, mətbuat xidməti işinin təkmilləşdirilməsi, akkreditasiya və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Fərid Qayıbov irəli sürülən təkliflərin ümumiləşdirilərək müzakirə ediləcəyini və federasiyaların iştirakı ilə belə görüşlərin mütəmadi təşkil olunacağını bildirib.



## Gimnastika Federasiyası milli yarışları bərpa edir

Dünyada yayılmış COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə bir sıra idman növlərində olduğu kimi, gimnastikada da 2020-2021-ci illərdə keçirilməsi nəzərdə tutulan yerli yarışlar təxirə salınmışdı. Azərbaycan Gimnastika Federasiyası (AGF) ötən il paytaxtımızda uğurla təşkil edilmiş irimiqyaslı beynəlxalq yarışlardan sonra 2022-ci ildə gimnastika növləri üzrə milli yarışları keçirməyə hazırlaşır.

Yarışların Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi icazəsi ilə ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına və sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçı iştirakı olmadan keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, ilin ilk 3 ayı ərzində Milli Gimnastika Arenasında müxtəlif gimnastika növləri üzrə 4 milli yarış keçiriləcək. Belə ki, yanvarın 29-da batut gimnastikası üzrə 6-cı, tamblinq üzrə 18-ci Azərbaycan birinciliyi və Bakı çempionatı, fevralın 24-25-də akrobatika gimnastikası üzrə 27-ci ölkə birinciliyi və paytaxt çempionatı, martın 16-da bədii gimnastika üzrə 27-ci Azərbaycan çempionatı, martın 25-26-da qadın idman gimnastikası üzrə 6-cı, kişi idman gimnastikası üzrə 27-ci respublika birinciliyi və Bakı çempionatı təşkil olunacaq.

## Cüdo üzrə yığma komandaların yeni məşqçiləri müəyyənləşdi

Azərbaycan Cüdo Federasiyasının iclası keçirilib. İclasda cüdo üzrə Azərbaycan milli komandalarının yeni məşqçilər heyəti təsdiqlənib. Belə ki, dünya və Avropa çempionu, böyüklərdən ibarət millimizin keçmiş məşqçisi Elxan Məmmədov yenidən məşqçilik karyerasını yığmada davam etdirəcək. Dünya çempionumuz gənclərdən ibarət millimizə baş məşqçi təyin olunub. Ona bu vəzifədə əsas yığmada məşqçi vəzifəsindən ayrılan Elxan Rəcəbli və Rüstəm Alimli kömək edəcək.

Gənclərdən ibarət yığmanın baş məşqçisi Elçin İsmayılov isə böyüklərdən ibarət komandanın böyük məşqçisi təyin edilib. Onunla yanaşı, Mehman Əzizov və gənclərdən ibarət yığmanın məşqçisi işləmiş Zaur Babayev də baş məşqçi Mövlud Mirəliyevin köməkçisi təyin olunub.

Bundan başqa, yeniyetmələrdən ibarət millinin də məşqçiləri təsdiqlənib. Ramiz Ramizzadə yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi vəzifəsində qalıb. Ona bu işdə karyerasını avqust ayında bitirən Nicat Şıxəlizadə və Emin İsgəndərov kömək edəcək.

Qadınlardan ibarət millimizdə baş məşqçi vəzifəsini Rəşad Məmmədov icra edəcək. Onun bu vəzifədə köməkçisi İmamverdi Məmmədov olacaq.

Gənclərdən ibarət qadın komandamızda da yeni məşqçi təyinatları olub. Belə ki, dünya və Avropa mükafatçısı Kifayət Qasımova milli komandaya təyinat alıb. 36 yaşlı keçmiş cüdoçu yığmada məşqçi kimi fəaliyyət göstərəcək. O, Vüqar Hüseynovla birgə baş məşqçi Rəşad Məmmədova köməklik edəcək. Yeniyetmələrdə isə Elnur İsmayılovun baş məşqçi Rəşad Məmmədova köməklik edəcəyi təsdiqlənib.

* * *

Yanvarın 28-dən 30-dək Portuqaliyanın Odivelas şəhərində cüdo üzrə Qran-Pri turniri keçiriləcək. 3 gün davam edəcək turnirdə 39 ölkədən 286 (115 kişi, 131 qadın) cüdoçu çıxışını təsdiqləyib. Yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayacaqlar. Komandamız Portuqaliya səfərinə 14 cüdoçu ilə yollanacaq. Kişilərin yarışda komandamız Balabəy Ağayev, Rövşən Əliyev (60 kq), Yaşar Nəcəfov (66 kq), Nəriman Mirzəyev, Zaməddin Poladov (73 kq), Elcan Hacıyev, Zelim Tçkayev (81 kq), Rüfət İsmayılov (90 kq), Adil Kərimli (100 kq), İmran Yusifov və Uşangi Kokauri (+100 kq) ilə təmsil olunacaq. Qadınların mübarizəsində isə Aydan Vəliyeva, Şəfəq Həmidova (48 kq) və Səbinə Əliyeva (52 kq) tatami üzərinə çıxacaq.

* * *

Cüdo üzrə yığma komandalarımızın üzvləri Türkiyənin Antalya şəhərində beynəlxalq təlim-məşq toplanışında iştirak edirlər. Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə yanvarın 9-da start götürən hazırlıq prosesində kişi və qadınlardan ibarət cüdoçularımız ustalıq səviyyələrini artırmağa çalışırlar. Türkiyə, Fransa, Belçika, Niderland, Birləşmiş Ərəb Əmirlikləri, Yunanıstan, Gürcüstan və digər ölkələrin iştirak etdiyi təlim-məşq toplanışında 36 cüdoçumuz iştirak edir. Bunlardan 24-ü kişi, 12-si isə qadın cüdoçulardır.

Qarşıdakı yarışlara hazırlıq xarakteri daşıyan təlim-məşq toplanışı yanvarın 14-dək davam edəcək.

Qeyd edək ki, millimiz yanvarın 28-30-da Portuqaliyanın Odivelas şəhərindəki Qran-pridə, fevralın 5-6-da isə Fransanın paytaxtı Parisdəki "Böyük Dəbilqə" yarışında çıxış edəcək.

## Paralimpiyaçılarımız Norveçdə Pekin-2022-yə lisenziya xalları qazanmağa çalışacaqlar




Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin qış idman növləri üzrə milli komandası Norveçin Lillehammer şəhərində keçirilən dünya çempionatında iştirak edir.

Yanvarın 9-da start götürən yarışda komandamız baş məşqçi Məhəmməd İsmayılovun rəhbərliyi altında Mehman Ramazanzadə (kross-kantri) və Daşqın Abbasovla (dağ xizəyi) təmsil olunacaq. Yarış Pekin-2022 Qış Paralimpiya Oyunlarında iştirak üçün lisenziya xalı qazandırır.

Dünya çempionatı yanvarın 23-dək davam edəcək.

Qeyd edək ki, Qış Paralimpiya Oyunları martın 4-13-də Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçiriləcək.

## Pəhləvanlarımız təlim-məşq toplanışında iştirak edirlər

Güləş üzrə milli komandalarımız 2022-ci ilin ilk günlərindən məşqləri bərpa ediblər. Sərbəst güləş üzrə yığmamız yanvarın 15-dək Olimpiya Güləş Mərkəzində təlim-məşq toplanışı keçəcək. Hazırlıq prosesinin əsas məqsədi fiziki hazırlığı yüksəltməkdir. Bu baxımdan məşqçilər korpusu əsasən fitnes çalışmalarına üstünlük verir. Həftənin 4 günü gündə iki məşq baş tutursa, çərşənbə və şənbə günləri 1 məşq keçirilir. Həmin günlər keçirilən məşqlər açıq havada (əsasən stadionda) reallaşır. Təlim-məşq toplanışı baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında davam edir.

Yunan-Roma güləşi üzrə yığmamız isə Gürcüstan millisi ilə birgə Tbilisidə təlim-məşq toplanışı keçir. Yanvarın 10-dan başlayan hazırlıq prosesi ayın 27-dək davam edəcək.

Qadınlarımız isə yanvarın 12-dən 25-dək Rusiya yığması ilə birgə Krasnoyarskda qarşıdakı yarışlara hazırlaşacaq.

Komandamız toplanışı başa çatdıqdan sonra 2022-ci ilin ilk turnirində iştirak edəcək. Belə ki, təmsilçilərimiz yanvarın 26-dan 30-dək Krasnoyarskda keçiriləcək İvan Yarıgin Qran-Prisində mübarizə aparacaqlar.



## Millilərimizin mövqeyi açıqlandı

Beynəlxalq Voleybol Federasiyası (FIVB) qadın və kişi voleybolçulardan ibarət milli komandaların reytinq siyahısını açıqlayıb. Qadın voleybolçuların tərtib olunan yeni siyahısında Azərbaycan millisi 94 xalla 42-ci pillədə qərarlaşıb. Cədvələ 379 xalla ABŞ komandası başçılıq edir. Braziliya (366) və Çin (350) yığmaları isə müvafiq olaraq, ikinci, üçüncü pillələrdə yer alıblar.

Kişi voleybolçulardan ibarət Azərbaycan millisi isə beynəlxalq reytinq cədvəlində 51-ci pillədə qərarlaşıb. Millimizin aktivində 96 reytinq xalı var. Cədvəldə ilk üçlükdə Braziliya (399), Polşa (384) və Rusiya (352) milliləri yer alıblar.

* * *



Azərbaycan millisinin voleybolçusu Yelizaveta Səmədova karyerasını bərpa edib. Analıq məzuniyyətindən qayıdan hücumçu Türkiyə çempionatında çıxış edəcək. O, "Bolu Bələdiyyəsispor" klubu ilə anlaşıb. Voleybolçumuzun Superliqa təmsilçisi ilə müqaviləsi mövsümün sonunadək nəzərdə tutulub.

Y.Səmədova Bolu təmsilçisinin heyətində yığmamızın ikinci üzvü olacaq. Onadək Olena Xarçenko da bu klubla müqavilə imzalayıb.

Qeyd edək ki, 13 turdan sonra hesabında 13 xal olan klub 14 komanda arasında 13-cü pillədə qərarlaşıb.

* * *

Azərbaycan Voleybol Federasiyası seleksiya işlərinə start verib. Şəhər və rayonlarda perspektivli yeniyetmələrin voleybola cəlb olunması istiqamətində işlər davam etdirilir. Artıq federasiyanın nümayəndəsi, oğlan voleybolçular üzrə seleksioner məşqçi Yaqub Rəsulov ötən ilin dekabr ayının sonunda Şəki şəhərində səfərdə olub. O, burada yerli komanda ilə yanaşı, Mingəçevir, Oğuz və Balakən rayonlarında məşq edən 12-16 yaşlı oyunçuların hazırlığını izləyib. 4 rayondan 30-a yaxın yeniyetmənin qatıldığı məşq prosesinin ardından bir neçə nəfər baxış üçün Bakıya dəvət alıb. Onlara lazımı məsləhət verilib və yayda paytaxta gəlməsi məsləhət görülüb.

Qeyd edək ki, seçim prosesləri il ərzində həm qızlar, həm də oğlanlar arasında aparılacaq.

## Sumqayıtda məşqçi və hakimlərlə görüş olub



Azərbaycan Milli Karate Federasiyası (AMKF) regionlarla iş planına uyğun olaraq yeni mövsümə başlayıb.

Federasiyanın prezidenti Yaşar Bəşirov və Sumqayıt Gənclər və İdman Baş İdarəsinin rəisi Elgun Hümbətovun iştirakı ilə Sumqayıtda karatenin daha da inkişaf etdirilməsinə həsr olunmuş görüş olub.

Yerli məşqçi və hakimlərin iştirakı ilə Sumqayıtda keçirilən görüşdə 2021-ci ilin hesabatı nəzərə çatdırılıb, qarşıdakı planlar və mövcud problemlər haqqında məlumat verilib.

E.Hümbətov Azərbaycan karateçilərinin uğurlarında Sumqayıt idmançılarının xüsusi yeri olmasından məmnunluğunu ifadə edib. O, perspektivli idmançılara hər zaman dəstək verməyə hazır olduqlarını bildirib.

AMKF-nin rəhbəri Yaşar Bəşirov ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana qayğısı və diqqəti sayəsində böyük uğurlar əldə olunduğunu qeyd edib. O, dövlət tərəfindən müxtəlif fəxri adlar və mükafatların, eləcə də, həm dövlət, həm də hami təşkilatlar tərəfindən həvəsləndirici pul mükafatlarının verilməsinin idmançı və məşqçilərdə böyük ruh yüksəkliyi yaratdığını və gələcək yarışlarda daha məhsuldar və məsuliyyətli çıxışlara səbəb olduğunu bildirib.

Görüşdə həmçinin federasiyanın Sumqayıt üzrə nümayəndəsi Akif Kərimov Dünya Karate Federasiyasının (WKF) beynəlxalq məşqçi və müəllim sertifikatı ilə təltif olunub. O, 2021-ci ilin hesabatını verərkən vurğulayıb ki, Sumqayıtda ötən il 18 karateçi müxtəlif yaş qruplarında respublika çempionatında böyük nəticələr əldə edərək milli komandaya dəvət olunub. Avqustda Finlandiyada keçirilən Avropa çempionatında yeniyetmələr arasında Nihad Kərimzadə qızıl, Aysu Əliyeva isə bürünc medal qazanıblar. Birinci MDB oyunlarında digər sumqayıtlı karateçi Osman Osmanlı gümüş medala sahib olub.

## Yeniyetmə cüdoçular "Zəfər kuboku" turnirində yarışıblar



Göygöl Olimpiya İdman Kompleksində 15 yaşınadək cüdoçular arasında "Zəfər kuboku" turniri keçirilib. Azərbaycan Cüdo Federasiyasının, Göygöl Olimpiya İdman Kompleksinin təşkilatçılığı və Göygöl Rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə keçirilən yarışda ölkənin müxtəlif bölgələrindən 14 komandanı təmsil edən 200-dən çox oğlan və qız cüdoçu qüvvəsini sınayıb.

Mövcud pandemiya qaydalarına riayət olunmaqla keçirilən yarışın qalibləri kubok, medal və diplomlarla təltif ediliblər.

## "Qarabağ" və "Neftçi" ümumdünya reytinq cədvəlində irəliləyib

Futbol klublarının ümumdünya reytinq cədvəli açıqlanıb. "Top-500"də Azərbaycan iki klubla təmsil olunub. Təmsilçilərimiz arasında ən yüksək pillədə "Qarabağ" qərarlaşıb. Qurban Qurbanovun yetirmələri planetin 175-ci komandasıdır. Ağdam klubunun aktivində 1560 xal var.

Azərbaycan Premyer Liqasının vitse-çempionu bir il ərzində böyük sıçrayışa nail olub. "Qarabağ" 44 pillělik yüksəliş əldə edib.

Ölkə çempionu "Neftçi" də son bir ildə irəliləyib. Bakı təmsilçisi 365-ci sırada qərarlaşıb. Baş məşqçi Samir Abasovun yetirmələrinin aktivində 1471 xal var. Paytaxt klubu 23 pillə irəliləyişə nail olub.

Qeyd edək ki, siyahıya 2105 xala malik "Bavariya" başçılıq edir.

## Ötən ilin ən yaxşı kişi və qadın futbolçuları adına namizədlərin qısa siyahısı açıqlanıb

FİFA 2021-ci ilin ən yaxşı kişi və qadın futbolçuları adına namizədlərin qısa siyahısını açıqlayıb. Kişilər arasında bu ada Lionel Messi (Argentina, "Barselona"/PSJ), Robert Levandovski (Polşa, "Bavariya") və Məhəmməd Salah (Misir, "Liverpul") iddialıdır. İngiltərənin "Mançester Yunayted" komandasının portuqaliyalı hücumçusu Kristianu Ronaldo bu dəfə yekun siyahıda yer almayıb.




Ötən ilin ən yaxşısı olmağa namizəd qadın futbolçular isə Cennifer Ermoso (İspaniya, "Barselona"), Samanta Kerr (Avstraliya, "Çelsi"), Aleksiya Putelyasdır (İspaniya, "Barselona").

FİFA həmçinin 2021-ci ilin ən yaxşı kişi və qadın qapıçısı adına namizədlərin qısa siyahısını da açıqlayıb. Kişilər arasında bu ada Fransanın PSJ klubundan Canluici Donnarumma, İngiltərənin "Çelsi" klubundan Eduar Mendi və Almaniya "Bavariya"sından Manuel Noyer iddia edirlər.

Ötən ilin ən yaxşısı olmağa namizəd qadın qolkiperlər isə Ann-Katrin Berger (Almaniya / "Çelsi"), Kristiana Endler (Çili / PSJ / "Lion") və Stefani Labbedir (Kanada / "Rusenqord" / PSJ).

2021-ci ilin ən yaxşı baş məşqçisi adına namizədlərin də qısa siyahı artıq müəyyənləşib. Hazırda bu ada İtaliya millisinə rəhbərlik edən Roberto Mançini, onun İngiltərənin "Mançester Siti" və "Çelsi" klublarındakı həmkarları, müvafiq olaraq, Xosep Qvardiola və Tomas Tuxel iddialıdır.

FİFA qadın futbolunda da ilin ən yaxşı baş məşqçisi adına son üç namizədin adını açıqlayıb. Bu ada "Barselona"nın baş məşqçisi Luis Kortes, "Çelsi"nin çalışdırıcısı Emma Hayes və Niderlanddan olan Sarina Viqman (Niderland millisi/İngiltərə millisi) namizəddir.

Xatırladaq ki, "The Best" mükafatı yanvarın 17-də təqdim ediləcək.

## “Neftçi idman klubu” İB

# “Neftçi İdman Klubu” 2021-ci ili böyük uğurlarla başa vurub



Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən nəhəng işlər və iri layihələr hər birimizdə qürur hissi yaratmaqla bərabər, həm də bizi çox sevindirir. Təbii ki, buna görə, ilk növbədə, dövlətimizin idmana göstərdiyi diqqət və qayğını xüsusi vurğulamaq lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasəti sayəsində ölkəmiz Avropanın və dünyanın idman mərkəzlərindən birinə çevrilib. Məhz dövlətin, Milli Olimpiya Komitəsinin gündəlik qayğısı sayəsində həyata keçirilən tədbirlərin, görülən işlərin nəticəsində Azərbaycan ümumdünya olimpiyaçılar ailəsində böyük nüfuz sahibi olub. Ölkəmizin beynəlxalq aləmdə qazandığı inam sayəsində müxtəlif səviyyəli mötəbər yarışların respublikamızda keçirilməsi və idmançılarımızın əldə etdiyi yüksək nailiyyətlər söylədiklərimizin bariz nümunəsidir.

“Neftçi İdman Klubu” bu sahədə dövlət siyasətinin həyata keçirilməsində daim yaxından iştirak edib və bu gün də öz işini uğurla davam etdirir. Klubumuz mütəmadi olaraq neft, qaz və kimya sənayesinin işçiləri arasında idmanın müxtəlif növləri üzrə yarışlar təşkil edir. Bununla bərabər, peşəkar idmançıların yetişdirilməsi işində də bütün gücü ilə çalışır və Azərbaycan idmanına öz töhfələrini verir.

Yola saldığımız ilə nəzər salsaq, klubumuzun çoxsaylı uğurlara imza atdığının şahidi olarıq. Bu müddət ərzində klubun strukturunda fəaliyyət göstərən qurğularda idmanın 30 növü üzrə 81 peşəkar məşqçi-müəllimin rəhbərliyi altında minlərlə yeniyetmə və gənc, eləcə də yüzlərlə neftçi idmanla məşğul olub.

2021-ci ildə “Neftçi İdman Klubu”nun fəaliyyətinin əsas istiqaməti kimi, SOCAR-ın strukturuna daxil olan neft, qaz və kimya sənayesi müəssisələrində çalışan işçilərə və onların ailə üzvlərinə müasir tələblərə cavab verən bədən tərbiyəsi və idman xidmətlərinin göstərilməsi istiqamətində mühüm işlər görülüb. İl ərzində həmin işçilər arasında klubumuz tərəfindən çimərlik voleybolu, “Atam, anam və mən” (1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş idman-turizm yarışı) və mini-futbol (31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş turnir) üzrə kütləvi bədən tərbiyəsi və idman tədbirləri təşkil olunub ki, bu yarışlarda da yüzlərlə insan iştirak edib.

Qeyd edək ki, koronavirus pandemiyası səbəbindən bu yarışların ən kütləvisi olan spartakiada və bəzi tədbirlər təxirə salınıb.

Böyük idman və peşəkar idmançıların hazırlığı sahəsində də çoxsaylı uğurlara nail olunub. Respublikamız müstəqillik əldə etdikdən indiyə qədər idmançılarımız bütün olimpiadalarda iştirak edərək ölkəmizə medallarla dönüblər. Bununla bərabər, klubun yetirmələri bu gün də müxtəlif səviyyəli beynəlxalq yarışlarda mütəmadi olaraq ölkəmizi layiqincə təmsil etməkdədirlər. Dünyada pandemiyanın hökm sürməsinə və bu səbəbdən bir çox yarışların təxirə salınmasına baxmayaraq, təkcə 2021-ci il ərzində idmançılarımız 248 medal qazanıblar ki, onlardan da 100-ü qızıl, 52-si gümüş, 96-sı isə bürüncdür.

## Yay Olimpiya və Paralimpiya Oyunları

“Neftçi İdman Klubu”nun təmsilçiləri bu il Yaponiyada keçirilən Tokio-2020 Yay Olimpiya Oyunlarında uğurla çıxış edərək, 2 medala sahib olublar.

İdmançılarımızdan sərbəst güləşçi Hacı Əliyev (65 kq) Tokio Olimpiadasında yüksək göstəriciyə nail olub və dördilliyin zirvə yarışında Azərbaycanın aktivinə gümüş medal yazdırıb. Cüdoçumuz İrina Kindzerska isə mötəbər yarışın bürünc medalına yiyələnib.






Qeyd edək ki, bu, Azərbaycan yığmasının Tokio-2020 Yay Olimpiya Oyunlarında əldə etdiyi ilk medal idi.

Klubumuzun yetirmələrinin Tokioda keçirilən və 163 ölkədən 4400 idmançının 539 dəst medal uğrunda mübarizə apardığı XVI Yay Paralimpiya Oyunlarındakı möhtəşəm çıxışlarını isə xüsusi vurğulamaq lazımdır. Ümumiyyətlə, Tokio Paralimpiadası Azərbaycan idmanının, xüsusilə milli Paralimpiya hərəkatının tarixinə qızıl hərflərlə yazılıb. Mötəbər yarışa 36 idmançı ilə qatılan milli paralimpiya komandamız 19 medal (14 qızıl, 1 gümüş və 4 bürünc) qazanaraq, 163 ölkə arasında medal siyahısında 10-cu yerdə qərarlaşıb. Bu, yeddinci dəfə Paralimpiya Oyunlarında iştirak edən Azərbaycan yığmasının tarixində ən böyük uğurdur.

Qürurverici haldır ki, Azərbaycan komandasının qazandığı bu parlaq qələbədə “Neftçi İdman Klubu”nun yetirmələri böyük pay sahibi olublar. Belə ki, əldə olunan 19 medaldan 8-ni klubumuzun idmançıları ölkəmizə qazandırıblar.

Paracüdoçumuz, Rio-2016-nın qalibi Ramil Qasımovun və parataekvondoçumuz Aynur Məmmədovanın koronavirus testləri pozitiv çıxdığından onların hər ikisi yarışlardan buraxmalı olublar. Ancaq bu, komandada bir qədər məyusluq doğursa da, idmançılarımızın mübarizə əzmini qıra bilməyib.

“Neftçi İdman Klubu”nun Azərbaycan millisinin heyətində yer alan paracüdoçuları Tokio Yay Paralimpiya Oyunlarında böyük əzmkarlıq nümayiş etdirərək ölkəmizə 8 medal (6 qızıl, 2 bürünc) qazandırıblar.

Təmsilçilərimizdən Şahanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63kq), Dürsədəf Kərimova (+70 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq) qızıl, Namiq Abbaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) isə bürünc medala sahib olublar. Beləliklə, qələbələri ard-arda sıralayan paralimpiyaçılarımız Tokio Yay Paralimpiya Oyunlarında tarixi uğura imza atıblar.

Xatırladaq ki, Tokio Paralimpiadasında ölkəmizi idmanın 6 növündə 47 kateqoriya üzrə rekord sayda - 36 idmançı təmsil edirdi ki, onlardan da 22-si “Neftçi İdman Klubu”nun yetirmələri idi.

## Atletlərimiz birinci MDB Oyunlarında

Sentyabr ayında Rusiyanın Kazan şəhərində keçirilən birinci MDB Oyunlarında da atletlərimiz uğurlu çıxışları ilə yadda qalıblar. Klubumuzun Azərbaycan millisinin heyətində yer alan yetirmələri mötəbər yarışın 6 medalına (2 qızıl, 2 gümüş, 2 bürünc) yiyələniblər. Onlardan yunan-Roma güləşçilərimiz Nihad Quluzadə (55 kq) və Sərxan Məmmədov (130 kq) qızıl, qadın güləşçimiz Şahanə Nəzərova (50 kq) isə gümüş medal qazanıb. Cüdoçularımızdan 60 kiloqram çəki dərəcəsində çıxış edən Əhməd Yusifov yalnız həlledici final qarşılaşmasında komanda yoldaşına məğlub olaraq gümüş medala sahib olub. Digər cüdoçumuz Camal Feyziyev (+100) isə yarışı üçüncü pillədə başa vurub. Samboçumuz Adil Adilzadə (88 kq) də turnirin bürünc medalına layiq görülüb.

Yola saldığımız ildə ən böyük uğura klubumuzun güləşçiləri və cüdoçuları imza atıblar. Yuxarıda bu idman növlərində təmsilçilərimizin Tokio-2020 Yay Olimpiya Oyunları və birinci MDB Oyunlarındakı nailiyyətlərini qeyd etdik. Onların 2021-ci il ərzində bəzi mötəbər yarışlarda əldə etdikləri uğurlardan bir neçəsinə də nəzər yetirək.

Mart ayında Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan güləş üzrə Avropa Olimpiya Təsnifat Turnirində “Neftçi İdman Klubu”nun yetirmələri uğurla çıxış edərək 3 medala sahib olublar. Sərbəst güləşçimiz Hacı Əliyev (65 kq) turnirin gümüş medalına layiq görülüb və Tokio-2020-yə lisenziya qazanıb. Yunan-Roma güləşçilərimizdən 87 kiloqram çəki dərəcəsində mübarizə aparan İslam Abbasov qızıl, Sənan Süleymanov (77 kq) isə bürünc medala yiyələnib. Bu turnirdə İslam Abbasov da Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya əldə edib.

Aprel ayında Polşanın paytaxtı Varşavada böyüklər arasında keçirilən güləş üzrə Avropa çempionatında yunan-Roma güləşçimiz Sənan Süleymanov (77 kq) nüfuzlu yarışın bürünc medalını qazanıb.

May ayında Şimali Makedoniyanın paytaxtı Skopyedə 23 yaşadək güləşçilər arasında təşkil olunan Avropa çempionatında klubumuzun yunan-Roma güləşçisi Zaur Əliyev (55 kq) uğurla çıxış edib. Belə ki, təmsilçimiz böyük əzmkarlıq nümayiş etdirərək Avropa çempionu adını qazanıb.

İyun ayında Bolqarıstanın Samokov şəhərində yeniyetmə güləşçilər arasında keçirilən Avropa birinciliyində sərbəst güləşçimiz Abdulrəhman İbrahimov (60 kq) gümüş medala layiq görülüb. Yunan-Roma güləşçisi, 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Kənan Abdullazadə isə qitə birinciliyinin bürünc medalına yiyələnib.

Elə həmin ay “Neftçi İdman Klubu”nun digər yetirməsi, 70 kq çəkidə çıxış edən sərbəst güləşçi Turan Bayramov Almaniyanın Dortmund şəhərində təşkil olunan gənclər arasında Avropa birinciliyinin qalibi olub. Yunan-Roma güləşçisi Xasay Həsənli (72 kq) isə fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

Avqust ayında Rusiyanın Ufa şəhərində gənc güləşçilər arasında keçirilən dünya birinciliyində klubumuzun yetirmələri - Turan Bayramov (sərbəst güləş, 74 kq) və Elmir Əliyev (yunan-Roma güləşi, 55 kq) inamla mübarizə apararaq dünya üçüncüsü olublar.

*(ardı 5-ci səhifədə)*

## “Neftçi idman klubu” İB






# “Neftçi İdman Klubu” 2021-ci ili böyük uğurlarla başa vurub

(əvvəli 4-cü səhifədə)

Klubumuzun gənc çimərlik güləşçisi Fərid Cabbarov (80 kq) avqust ayında həm Avropa, həm də dünya çempionu titulunu qazanıb. Belə ki, təmsilçimiz əvvəlcə Yunanıstanın Katerini şəhərində keçirilən çimərlik güləşi üzrə Avropa birinciliyində, cəmi bir neçə gün sonra isə Rumıniyanın Konstanta şəhərində təşkil olunan dünya birinciliyində böyük əzmkarlıq nümayiş etdirərək, hər iki yarışın qızıl medalına yiyələnib.

Oktyabr ayında Norveçin paytaxtı Osloda böyüklər arasında keçirilən güləş üzrə dünya çempionatında “Neftçi İdman Klubu”nun Azərbaycan millisinin heyətində təmsil olunan yunan-Roma güləşçilərindən Sənan Süleymanov (77 kq) mundialın gümüş, Murad Məmmədov (60 kq) isə bürünc medalına layiq görülüb.

Noyabr ayında Serbiyanın paytaxtı Belqradda keçirilən 23 yaşadək güləşçilərin dünya çempionatında klubumuzun yunan-Roma güləşçiləri Nihad Quluzadə (55 kq) və Ülvü Qənizadə (72 kq) bürünc medala sahib olublar.

Nəhayət, dekabr ayında Bakı İdman Sarayında keçirilən sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatında da pəhləvanlarımız böyük uğura imza atıblar. Yunan-Roma güləşçilərimizdən Murad Məmmədov (63 kq), Ülvi Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq), Orxan Nuriyev (97 kq) və Sərxan Məmmədov (130 kq) bütün qarşılaşmaları qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Taleh Məmmədov (67 kq), Xasay Həsənli (77 kq), Arif Niftullayev (97 kq) gümüş, Ziyad Zeynalov (55 kq), Nihad Quluzadə (60 kq), Şirxan Quliyev (77 kq) və Tural Daşdəmirov (82 kq) isə bürünc medal qazanıblar. Beləliklə, Azərbaycan çempionatını 5 qızıl, 3 gümüş və 4 bürünc medalla başa vuran yunan-Roma güləşçilərimiz ümumi komanda hesabında birinci yeri tutublar. Klubumuzun sərbəst güləşçiləri də bu uğuru davam etdiriblər və çempionatın 9 medalını (4 qızıl, 5 bürünc) əldə ediblər. Pəhləvanlarımızdan Ziraddin Bayramov (65 kq), Turan Bayramov (74 kq), Orxan Abasov (86 kq) və Abdulcəlil Şabanov (92 kq) bütün rəqiblərini məğlub edərək ölkə çempionu olublar. İntiqam Vəlizadə, Murad Haqverdiyev (hər ikisi 61 kq), Seymur Cəbrayılov (65 kq), İslam Ilyasov (97 kq) və Aydın Əhmədov (125 kq) isə çempionatı üçüncü yerdə başa vurublar.

### Cüdoçularımız onlara bəslənilən ümidləri doğruldublar

Ötən il”Neftçi İdman Klubu”nun cüdoçuları da uğurlu çıxışları ilə yadda qalıblar. Təmsilçimiz Zelim Kotsoyev (100 kq) aprel ayında Portuqaliyanın paytaxtı Lissabonda böyüklər arasında keçirilən cüdo üzrə Avropa çempionatında mükafatçılar arasında yer alıb. O, 45 ölkədən 300-dən çox idmançının mübarizə apardığı yarışda bürünc medala layiq görülüb. İyul ayında Portuqaliyanın Koimbra şəhərində gənc cüdoçular arasında baş tutmuş Avropa kuboku yarışında Azərbaycan millisinin heyətində təmsil olunan idmançımız Nəriman Mirzəyev (66 kq) yarışın bürünc medalını qazanıb. Avqust ayında Latviyanın paytaxtı Riqada yeniyetmələr arasında təşkil olunan cüdo üzrə Avropa birinciliyində klubumuzun yetirmələrindən Aydan Vəliyeva (48 kq) bütün rəqiblərini məğlub edib və Avropa çempionu tituluna yiyələnib. Digər idmançımız Zahir Ağazadə (60 kq) isə qitə birinciliyini üçüncü yerdə başa vurub.

Xanım idmançımız Aydan Vəliyeva (48 kq) senyabr ayında Lüksemburqda baş tutan gənc cüdoçular arasında Avropa birinciliyində daha bir uğura imza atıb. Cüdoçumuz 43 ölkədən 350-dən çox idmançının mübarizə apardığı mötəbər yarışda gümüş medala sahib olub.

Dekabr ayında Fransanın paytaxtı Parisdə keçirilən cüdo üzrə klublar arasında Avropa Çempionlar Liqası turnirində “Neftçi İdman Klubu”nun yetirməsi Rüstəm Orucov (73 kq) Serbiyanın “Srvena Zvezda” klubunun heyətində gümüş medala yiyələnib.

Elə həmin ay kişilər və qadınlar arasında təşkil olunan cüdo üzrə Azərbaycan kuboku yarışında da idmançılarımız uğurlu çıxışlarını davam etdiriblər. Fövqəladə Hallar Nazirliyinin Hövsan qəsəbəsindəki “Xilasedici” İdman-Sağlamlıq Mərkəzində keçirilən turnirdə klubumuzun yetirmələrindən Balabəy Ağayev (60 kq), Nəriman Mirzəyev (73 kq), Adil Kərimli (100 kq) və Aydan Vəliyeva (48 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıblar. Rövşən Əliyev (60 kq), Camal Feyziyev (+100 kq) gümüş, Əhməd Yusifov (60 kq), Yaşar Nəcəfov (66 kq), Zelim Tçkayev (81 kq), Vüqar Talıbov (90 kq), Hüseyn Dadaşov (100 kq), Şahin Qəhrəmanov (+100 kq), Ayşə Qurbanlı (48 kq), Ülviyyə Bayramova (52 kq) və Nigar Süleymanova (+78 kq) isə bürünc medal əldə ediblər. Qeyd edək ki, “Neftçi İdman Klubu”nun cüdoçuları 52 komandanın heyətində 307 idmançının (250 kişi, 57 qadın) qalib adı uğrunda mübarizə apardığı yarışda 4 qızıl, 3 gümüş, 8 bürünc medal qazanaraq ümumkomanda hesabında 1-ci yeri tutublar və Azərbaycan kubokuna sahib olublar. Bundan əlavə, cüdoçularımız il ərzində müxtəlif ölkələrdə təşkil olunmuş “Böyük dəbilqə” və Qran-pri beynəlxalq turnirlərində də əzmlə mübarizə apararaq ölkəmizə medallarla dönüblər.



### Atletika, atıcılıq və şahmat yarışları uğurla yadda qalıb

Fevral ayında İstanbulda keçirilən atletika üzrə 26-cı Balkan çempionatında “Neftçi İdman Klubu”nun yetirməsi, Avropa çempionu Nazim Babayev üçtəkanla tullanma yarışında bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb. İyunda klubumuzun təmsilçisi Ruslan Lunyov Xorvatiyanın Osiek şəhərində güllə atıcılığı üzrə təşkil olunan Avropa çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında 582 xal toplayaraq bürünc medala yiyələnib.

“Neftçi İdman Klubu”nun yetirməsi Teymur Rəcəbov norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi və dünyanın şahmat ulduzlarının mübarizə apardığı nüfuzlu “Champions Chess Tour”da (Çempionlar Turunda) böyük uğura imza atıb. Şahmatçımız “Champions Chess Tour” seriyası çərçivəsində keçirilən ikinci - “Airthings Masters” turnirinin finalında Ermənistan təmsilçisi Levon Aronyanı məğlub edərək yarışın qalibi olmaqla yanaşı, həm də seriyanın finalına vəsiqə qazanıb. Teymur Rəcəbov seriyanın üçüncü mərhələsində - “Opera Euro Rapid” turnirində üçüncü, final mərhələsində isə ikinci yeri tutub. Qeyd edək ki, 2021-ci il yanvar ayının əvvəlində start götürmüş və oktyabrın 4-dək davam edən “Champions Chess Tour” onlayn şahmat seriyası ümumilikdə 10 turnirdən ibarət olub.

Bundan əlavə, klubumuzun yetirmələri müxtəlif idman növlərində də il ərzində dünya, Avropa çempionat və birinciliklərində, eləcə də digər beynəlxalq turnirlərdə əzmkarlıq nümayiş etdirərək ölkəmizə medallarla dönüblər.

2021-ci ildə təkmübarizlik növləri ilə yanaşı, kollektiv oyun növləri üzrə də mühüm addımlar atılıb. Yüksək liqada çıxış edən kişilərdən ibarət voleybol komandamız sonuncu Azərbaycan çempionatında turnir cədvəlinin lideri olsa da, koronavirus pandemiyası səbəbindən çempionat yarımçıq dayandırılıb.

### “Neftçi İdman Klubu” uşaq futbolunun inkişafını daim diqqətdə saxlayır

“Neftçi İdman Klubu” uşaq futbolunun inkişafını özünün prioritet məsələlərindən hesab edir. Ona görə də uşaq futbolunda çalışmış təcrübəli mütəxəssislər və kateqoriyalı məşqçilər bu işə cəlb olunub. Klub tərəfindən daim seleksiya xarakterli toplantılar keçirilir, istedadlı uşaqlar, yeniyetmələr seçilərək müxtəlif yaş qrupları üzrə komandalara cəlb olunurlar. Hal-hazırda “Neftçi İdman Klubu”nda 24 məşqçinin rəhbərliyi altında 300-ə yaxın uşaq və yeniyetmə futbolun sirlərini öyrənir. Klubumuzun uşaq futbol komandaları AFFA-nın təşkilatçılığı ilə keçirilən aşağı yaş qrupları üzrə bütün liqalarda yüksək səviyyədə təmsil olunurlar.

Sadaladığımız bu uğurlar il ərzində klubun əldə etdiyi çoxsaylı nailiyyətlərin cüzi bir hissəsidir.

Ümumiyyətlə, qazandığı yüksək nailiyyətlər sayəsində “Neftçi İdman Klubu” Gənclər və İdman Nazirliyi tərəfindən 2007-2013-cü illərdə ardıcıl olaraq yeddi dəfə, sonrakı illərdə isə daha bir neçə dəfə “İlin ən yaxşı idman cəmiyyəti” adına layiq görülüb.

Təbii ki, əldə olunan nailiyyətlər bizi sevindirməyə bilməz. Ancaq qazanılan bu uğurlarla kifayətlənmək fikrində də deyilik. Əksinə, daha yüksək nəticələr əldə etmək üçün inamla, əzmlə çalışırıq.

*Sadıq Sadıqov,*
*“Neftçi İdman Klubu” İctimai Birliyi idarəetmə aparatının rəhbəri, Əməkdar bədən tərbiyəsi və idman xadimi*

## ADBTİA-nın professor- müəllim heyəti üçün ixtisasartırma təlimləri keçirilir

AFFA və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) əməkdaşlığı çərçivəsində Akademiyanın professor-müəllim heyəti üçün ixtisasartırma təliminə start verilib.

Akademiyanın idmanın oyun növləri kafedrasının professor-müəllim heyəti üçün keçirilən ixtisasartırma təlimi 10 gün davam edəcək.

"Reallığa əsaslanan öyrənmə prosesi" mövzusunda təşkil olunan təlimi AFFA-nın texniki departamentinin rəisi Cahangir Həsənzadə və məşqçi kurslarının instruktorları Aslan Kərimov və Osman Rəhimov keçirlər.

Təlimin məqsədi iştirakçıların UEFA-nın "C" kateqoriyalı məşqçi kursunda praktiki öyrətmə (məşq) prosesində monitorinq və tütorluq fəaliyyətini həyata keçirmək bacarıqlarının inkişaf etdirilməsidir. Təlim iştirakları məşqçilik ixtisası üzrə bakalavriat təhsil səviyyəsinin IV tədris ilinin tələbələrinə uyğun UEFA-nın "C" kateqoriyalı məşqçi kursuna metodist-təlimatçı kimi cəlb olunacaqlar.

Qeyd edək ki, bu təlimlər ADBTİA-nın tələbələrinin daha effektiv və müasir öyrənmə prosesi keçməklə UEFA-nın "C" kateqoriyalı məşqçi lisenziyasına yiyələnməsinə və gələcəkdə daha spesifik məşqçi işi sərgiləyərək ölkəmizdə kütləvi futbola töhfə verməsinə zəmin hazırlayacaq.

**REDAKSİYANIN POÇTUNDAN**

## "Astara" Futbol Klubunun üzvləri mükafatlandırıldı

Astara rayonunda son illər idmanın inkişafı üçün mühüm işlər görülür. Nəticədə rayonun idmançıları rayonda, respublikada keçirilən müxtəlif yarışlarda həmişə sevindirici nəticələr əldə edirlər. Rayondakı "Astara" Futbol Klubunun da qazandığı qələbələr kifayət qədərdir. Klub AFFA-nın təşkilatçılığı ilə futbol üzrə kişilər arasında keçirilən "Region Liqa" çempionatında uğurla çıxış edir. Məhz bu səbəbdə Astara Rayon Gənclər və İdman İdarəsində "Astara" Futbol Klubunun üzvlərinə mükafatlar təqdim olunub. Bu münasibətlə keçirilən mərasimdə çıxış edən Rayon Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən R.Şirinov "Astara" Futbol Klubunun üzvlərini və onun məşqçilərini çempionatda qazanılmış uğurlara görə təbrik edib.



"Astara" Futbol Klubunun baş məşqçisi Qəhrəman Mirzəyev, məşqçilər Cəsarət Əliyev, Etibar Axundov isə çıxışlarında ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına, eləcə də idmançılara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Oktyabrın 30-dan futbolçuları yaşıl meydançaya dəvət edən "Region Liqa" çempionatın artıq 6 turu geridə qalıb. 6 oyunun 4-də qələbə qazanan "Astara" Futbol Klubu bir oyunu heçə, birini isə məğlubiyyətlə başa vurub. Çempionatda növbəti oyunlar bu ilin fevral ayından start götürəcək.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## FİDE yeni reytinq siyahısını açıqlayıb

Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni ilin ilk ayı - yanvar ayı üçün reytinq siyahısını açıqlayıb. Dünya reytinqində ön sıralarda olan Şəhriyar Məmmədyarov (2767 xal) və Teymur Rəcəbovun (2753 xal) mövqeləri dəyişməyib. Ş.Məmmədyarov 9-cu, T.Rəcəbov isə 14-cü sırada yer alıblar.



Kişi şahmatçılarımızdan ilk yüzlükdə daha iki təmsilçimiz var. Belə ki, Qədir Hüseynov (2661 xal) 77-ci, Rauf Məmmədov isə (2656 xal) 87-ci pillədə qərarlaşıblar.

Siyahıya norveçli dünya çempionu Maqnus Karlsen (2865 xal) başçılıq edir. İkinci pillədə Fransanı təmsil edən gənc qrossmeyster Alireza Firuzca (2804 xal), üçüncü yerdə isə çinli Dinq Liren (2799 xal) yer alıblar.

Qadınların reytinq cədvəlində isə ilk yüzlükdə şahmatçılarımız Günay Məmmədzadə 2470 xalla 24-cü, Gülnar Məmmədova (2387 xal) 68-ci, Xanım Balacayeva (2376 xal) 79-cu pillədə qərarlaşıblar.

Qadınların reytinq cədvəlinə çinli Yifan Hou (2658 xal) başçılıq edir. Rusiyalı Aleksandra Qoryaçkina (2610 xal) və hindistanlı Hampi Koneru (2586 xal) ilk üçlüyü tamamlayıblar.

## Zəka sahiblərimiz "Vergani Cup" turnirini medalsız başa vurdular

İtaliyada keçirilən şahmat üzrə "Vergani Cup" beynəlxalq turniri başa çatıb. İsveçrə sistemi üzrə keçirilən və 124 zəka sahibinin iştirak etdiyi yarışda Azərbaycan şahmatçıları da mübarizə aparıblar. Yarışın A turnirində ölkəmizi Gövhər Beydullayeva və Ülviyyə Fətəliyeva təmsil edib.



Zəka sahiblərimizdən Ülviyyə Fətəliyeva festivalın sonuncu turunda yerli şahmatçı Mikele Piangerelliyə qalib gəlib. Digər şahmatçımız Gövhər Beydullayeva isə italiyalı Alberto Barp ilə xalları yarı bölüb.

Beləliklə, bu nəticələrdən sonra hər iki şahmatçımız çıxışını 5 xalla başa vurub. Əlavə göstəricilərə görə Ü.Fətəliyeva 39-cu pillədə qərarlaşıb. G.Beydullayeva isə 41-ci olub.

Turnirin qalibi adını isə 9 turdan 7 xal toplayan hindistanlı Lalit Babu qazanıb.

**Müsahibə**

# "İdman güc mübarizəsindən ağıl və ruh mübarizəsinə keçib"

"İgid" peşəkar güləş klubunun sədri, idman psixologiyası üzrə mütəxəssis Kazım Əliyev bir müddət əvvəl Türkiyə Respublikasından qayıdıb. Tanınmış idman mütəxəssisi səfər zamanı bir sıra tədbirlərdə iştirak edib. Türkiyə Milli Olimpiya Komitəsinin dəvəti ilə qardaş ölkədə səfərdə olan Kazım Əliyev qurumun rəhbərliyi ilə də görüşüb. Bu məqsədlə redaksiyamızın qonağı olan Kazım müəllim səfər təəssüratlarını "Olimpiya dünyası" qəzeti ilə bölüşüb.



***- Kazım müəllim, Türkiyə səfəriniz barədə fikirlərinizi bilmək istərdik.***

- Mən 2008-ci ildə "İdmançının qələbə psixologiyası", 2014-cü ildə "Məşqçinin stolüstü kitabı", eləcə də, 2019-cu ildə "İdmanda şüurlu tədris" kitablarımı öz vəsaitim hesabına türk dilinə çevirib, Türkiyə Milli Olimpiya Komitəsinə göndərmişdim. Onlar da bu işimə cavab olaraq məni Türkiyəyə dəvət etdilər. Mənim göndərdiyim kitablar Türkiyə Olimpiya Komitəsinin nəzdnində yaradılan, mərhum idman yazarı Haluk Sanın adını daşıyan kitabxanada yerləşdirilib.

***- Bildiyimizə görə, Türkiyə Milli Olimpiya Komitəsinin vitse-prezidenti tərəfindən də mükafatlandırılmısınız.***

- Əvvəlcə onu qeyd edim ki, mənim bu işi görməkdə məqsədim dost və qardaş ölkə olan Türkiyə ilə siyasətdə, hərbidə və ticarətdə bir olduğumuz kimi, həmçinin idmanda da təmənnasız olaraq, elmi birlik yaratmaq idi. Nəticəsi isə məni çox gözlətmədi. Türkiyə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Erdoğan Arıpınar Komitənin nəzdində fəaliyyət göstərən "Fair Play" hədiyyəsini mənə təqdim etdi. Eləcə də, idman sahəsində gördüyüm işlərə görə mənə bir neçə hədiyyə, eləcə də "Fair Play"ın və Türkiyə Milli Olimpiya Komitəsinin döş nişanı təqdim olundu. Görüşdə Erdoğan bəyə kitablarımın onlar tərəfindən çap edilərək, Türk idman dünyasına təmənnasız olaraq paylanmasını arzu etdiyimi bildirdim. Eyni zamanda onlara DVD formatda olan 10 seminar dərs planımı təqdim etdim və idmanda müasir tədrisin yaradılma yollarını müzakirə etdik. Bir sözlə, yaxın illərdə idmanda elmi birliyin yaradılmasının planını müəyyənləşdirdik. Bu yaxınlarda Komitənin rəhbəri tərəfindən Gənclər və İdman Nazirliyinə təşəkkür məktubu göndərildi. Buna görə çox sevincliyəm. Çalışıram ki, əlimdən gələn qədər idmanın elmi yolla təbliğində öz təcrübəmi əsirgəməyim.

***- Kazım müəllim, elmlə idmanın vəhdəti anlayışını necə açıqlaya bilərsiniz?***

- Həyatda əbədi yüksəlişi elmsiz və müasir idmansız yaratmaq mümkün deyil. Buna isə bir gün mütləq başlamalıyıq. Ölkədə uşaq idmanının yaradılması ilə və idmanla şəxsiyyət yaratmasını təmin etməklə buna nail ola bilərik.

Ölkə idmanında elmi seminarların keçirilməməsi bizim idmanımızı müasirlikdən zaman-zaman daha da uzaqlaşdırır. Bilməliyik ki, bütün dünyada gedən elmi texniki tərəqqini yaradan seminarlardır. Ölkə məktəblərində və ali təhsil ocaqlarının tədrisində edilmiş tədris reformalarıləngidilmədən bizim idman tədrisimizdə də tətbiq edilməlidir. Bu idman psixologiyasının ayrılmaz hissəsidir. Məlumat üçün bildirim ki, 1910-cu ildə İsveçrənin Lozanna şəhərində psixoloqların konqresində idman psixologiyası bir elm kimi qəbul edilib. Həmin vaxtdan idman güc mübarizəsindən ağıl və ruh mübarizəsinə keçib.

***- Bir idman mütəxəssisi kimi hansı təklifləriniz var?***

- Məsələn, ölkədə heç bir komplekslərdə nəzəri tədris otaqları yoxdur. Eləcə də, idmançılara fərdi tədris keçirilməsi üçün mini zallar yaradılmayıb. Həyatda isə müasir işi, müasir yanaşma ilə həyata keçirmək mümkündür. Ölkədə uşaq idmanına daha çox yer verilməlidir. İnkişaf etmiş ölkələrdə uşaq idmanına 3-4 yaşından götürüldüyü halda bu gün bizdə güləş idman növünə 12-13 yaşından qəbul edirlər.

Uşaq evlərində də idman tədris olunmalıdır. Bu kütləvilik isə idmanın yüksəlişinə daha da təsir edə bilər.

Düşünürəm ki, bu gün idmanımızın andı olmalıdır. Necə olur ki, tibbdə, ədliyədə və hərbidə and var, amma Vətənin idman şərəfini qoruyan mübariz idmançılarımızın andı yoxdur. And insanda mənəvi, əxlaqi və iradi dəyərləri fərdi olaraq formalaşdırır. Nəhayət isə and insana özü-özünə dərk etdirmiş olur. Bu isə həyatda insanın formalaşmasının əsas atributlarındandır. Hesab edirəm ki, bu və ya digər təkliflərim diqqət çəkəcək.




*Anar Əhmədov*




# “Pələng ili”ndə təqvim daha rəngarəng olacaq

Yeni ilin ilk günlərinə qədəm qoymuşuq. Bizi qarşıda böyük və maraqlı idman yarışları gözləyir. İdman yarışlarından söz düşmüşkən qeyd etməliyik ki, ilin ən böyük idman hadisəsi təbii ki, Qətərdə təşkil olunacaq futbol üzrə dünya çempionatıdır. Tarixdə ilk dəfə qış ayına təsadüf edəcək bu mötəbər futbol bayramını milyonlarla azarkeş səbirsizliklə gözləyir. Məhz bu səbəbdən futbol üzrə digər turnirlərinin qrafikində bir sıra dəyişikliklər olacaq. Bir sözlə, azarkeşlər futbolsuz darıxmayacaqlar. İyul ayını nəzərə almasaq, demək olar ki, ilin 11 ayı ərzində futbol üzrə beynəlxalq turnirlər bir-birini əvəz edəcək. Lakin bu o demək deyil ki, yayın ikinci ayında futbolsevərlər stadionları boş, ekranları futbolsuz görəcəklər. Qitənin ayrı-ayrı ölkələrində futbol həyəcanı davam edəcək.

Yeni ilin ilk mötəbər futbol yarışı Afrikada start götürüb.

“Qara qitə”nin Millətlər kubokunda 16 komanda mübarizə aparır. Avropanın aparıcı futbol çempionatlarında böyük rəğbət qazanan futbolçular təmsil etdikləri ölkənin yığma komandasında forma geyinirlər. Onlardan “Liverpul”lu Məhəmməd Salah Misir, Sadio Mane Seneqal, Nəbi Keyta Qvineya, “Bavariya”lı Erik Şubo-Motinq Kamerun, “Atletiko”lu Tomas Partey Qvineya, PSJ-li Əşrəf Hakimi Mərakeş, “Lester”li Keleçi İhenaço Nigeriya, “Mançester Siti”li Riad Mahrez Əlcəzair, “Qarabağ”lı Patrik Andrade Kabo-Verde yığmalarının heyətində mübarizə aparırlar.

Ayın ən maraqla gözlənilən digər bir yarışı İspaniya kuboku olacaq. La Liqanın 4 ən güclü klubu fəxri mükafat üçün yarışacaq. Bu ay azarkeşlər və futbolçular “El Klassiko” həyəcanı yaşayacaqlar. Son vaxtlar əvvəlki kimi uğurlu çıxış etməyən “Barselona” Madrid “Real”ı ilə üz-üzə gələcək. Cütün qalibi “Atletiko”-”Atletik” matçının ən güclüsü ilə final qarşılaşmasına çıxacaq.

Növbəti ay avrokuboklarda növbəti mərhələyə vəsiqə uğrunda mübarizəyə start veriləcək. Azərbaycanlı azarkeşlərin böyük həyəcanla gözlədiyi “Olimpik”- “Qarabağ” matçı bu aya təsadüf edəcək. Tarixində ilk dəfə qrup mərhələsini keçən klub təmsilçimiz ilk görüşünü Marseldə keçirəcək. Avrokuboklarda həyəcan may ayına qədər bizimlə olacaq. İl ərzində maraqla gözlənilən daha bir görüş isə Amerika çempionu ilə Avropa çempionatının qalibi arasında təşkil olunacaq. Okeanın o tayında ən güclü yığma adını qazanan Argentina “Köhnə qitə”nin qalibi İtaliya millisi ilə Avro-Amerika kubokunun ilk qalibi olmaq üçün meydana çıxacaq. Görüş Londonun Uembli stadionunda keçiriləcək.

Bir sözlə, futbol öz gözəlliyi ilə bu yeni ildə də zövqümüzü oxşayacaq. Əsas odur ki, dünyamız pandemiya bəlasından uzaq olsun.

## İlin mühüm futbol yarışları - Təqvim

### Yanvar

- Afrika Kuboku (Kamerun) (9 yanvar-6 fevral)
- İspaniya Super Kuboku (12-16 yanvar) (“Atletiko” - “Atletik”,12 yanvar), (“Real”- “Barselona”, 13 yanvar), (Final, 16 yanvar)



- FİFA-nın versiyasına görə ilin ən yaxşı futbolçularının və məşqçilərinin mükafatlandırılma mərasimi (İsveçrə, Sürix) - 17 yanvar

### Fevral

- Klublararası dünya çempionatı (BƏƏ) - 3-12 fevral




- Afrika Kuboku (Kamerun) (9 yanvar-6 fevral)
- UEFA Çempionlar Liqasının təsnifat mərhələsi (17-24 fevral)

### Mart

- UEFA Avropa Liqasının 1/8 mərhələsi (10-17 mart)
- Qətərdə keçiriləcək dünya çempionatının təsnifat mərhələsi (24-29 mart)

### Aprel

- Qətərdə keçiriləcək dünya çempionatının final mərhələsinin püşkatma mərasimi (1 aprel)
- UEFA Avropa Liqasının 1/4 final mərhələsi (7-14 aprel), İlk yarımfinal (28 aprel)

### May

- UEFA Avropa Liqasının yarımfinal mərhələsinin cavab görüşləri (5 may), Final (18 may, Sevilya)
- UEFA Konfrans Liqasının finalı, (25 may, Tirana)
- UEFA Çempionlar Liqasının finalı, (28 may, Sankt-Peterburq)



### İyun

- Avro-Amerika kuboku - Final, İtaliya - Argentina (1 iyun, London)
- UEFA Millətlər Liqası -2022-2023, qrup turniri (2-14 iyun)

### İyul

- Təqvimə əsasən hələ ki, heç bir beynəlxalq turnir müəyyənləşməyib.

### Avqust

- UEFA Çempionlar, Avropa və Konfrans Liqasının pley-off mərhələsinin püşkatma mərasimi (1 avqust)




- UEFA Çempionlar, Avropa və Konfrans Liqasının üçüncü təsnifat raundu, (2,3,4,9 və 11 avqust)
- UEFA Superkuboku - Final (10 avqust, Helsinki)
- UEFA Çempionlar, Avropa və Konfrans Liqasının pley-off mərhələsi (16-18, 23-25 avqust)
- UEFA Çempionlar (25 avqust), Avropa və Konfrans Liqasının qrup mərhələsinin püşkatma mərasimi (26 avqust)

### Sentyabr

- UEFA Millətlər Liqası - 2022-2023, qrup turniri (22-24, 25-27 sentyabr)
- UEFA Çempionlar Liqasının qrup mərhələsi (6,7 -13,14 sentyabr)
- UEFA Avropa və Konfrans Liqasının qrup mərhələsi (8-15 sentyabr)

### Oktyabr

- Avro-2024-ün seçmə mərhələsinin püşkatma mərasimi (9 oktyabr, Almaniya, Frankfurt)
- UEFA Çempionlar Liqasının qrup mərhələsi (4,5,11,12, 25 və 26 oktyabr)
- UEFA Avropa və Konfrans Liqasının qrup mərhələsi (6,13-27 oktyabr)




### Noyabr

- UEFA Çempionlar Liqasının qrup mərhələsi (1-2 noyabr)
- UEFA Avropa və Konfrans Liqasının qrup mərhələsi (3 noyabr)
- Qətər-2022 futbol üzrə dünya çempionatı (21 noyabr-18 dekabr)

### Dekabr

- Qətər-2022 futbol üzrə dünya çempionatı (21 noyabr-18 dekabr) - FİNAL



*Səhifəni hazırladı: Anar Əhmədov*



Dünya-idmanı

## “Məğlubedilməz boksçu” yenidən ringə çıxacaq

Beş çəki dərəcəsi üzrə amerikalı keçmiş dünya çempionu Floyd Meyvezer fevralın 20-də Dubayda sərgi döyüşü keçirəcək.

Nümayiş xarakterli döyüşdə idmançının rəqibi hələlik müəyyənləşməyib. “Döyüş fevralın 20-də keçiriləcək. Biz hələ ki rəqib seçməmişik. Amma səbirsizliklə həmin günü gözləyir və cəlbedici döyüş alınacağına ümid edirəm”, - deyə 44 yaşlı F.Meyvezer bildirib.

Qeyd edək ki, F.Meyvezer bu yaxınlarda açıqlanan tarixin ən varlı boksçularının siyahısında birinci pillədə qərarlaşıb. Hazırda ABŞ idmançısının sərvətinin 479 milyon



avro olduğu bildirilir. Siyahının ikinci pilləsində isə ağır çəkidə keçmiş dünya çempionu adını qazanan Corc Forman yer alıb. Boksçu 266 milyon avro sərvətə malikdir. Üçüncü sırada isə 195 milyon avro ilə filippinli Menni Pakyao qərarlaşıb.

Xatırladaq ki, karyerasını 2017-ci ildə bitirən Floyd Meyvezerin hesabında 50 qələbə var.

## Formula 1 pilotlarının aylıq məvacibləri açıqlanıb

Formula 1 pilotlarının 2022-ci il üçün aylıq məvacibləri açıqlanıb. Pilotların aylıq gəlirlərini “Racing Elite” nəşri “Forbes” və müxtəlif digər mənbələrin məlumatlarına əsasən tərtib edib. Siyahıda ilk iki pilləni ötən mövsümün əsas favoritləri Luis Hamilton (“Mercedes”) və Maks Ferstappen (“Red Bull Racing”) tutur. Onların gəlirləri 40 milyon avroya çatacaq.

İlk onluqda Daniel Rikkardo (“McLaren”, 16 milyon), Fernando Alonso (“Alpine”, 15 milyon), Sebastyan Fettel (“Aston Martin”, 13 milyon), Şarl Lekler (“Ferrari”, 9 milyon), Corc Rassel (“Mercedes”, 4,5 milyon), Karlos Sayns (“Ferrari”, 3,5 milyon), Serxio Peres (“Red Bull Racing”, 3 milyon), Valtteri Bottas (“Alfa Romeo”, 2 milyon), Esteban Okon (“Alpine”, 1,5 milyon), Lens Stroll (“Aston Martin”, 1,2 milyon) və Lando Norris (“McLaren”, 1 milyon avro) qərarlaşıblar.

## Yapon brendi Formula 1-i tərk etdi

Rəsmi olaraq 2021-ci il “Honda” üçün Formula 1-də sonuncu il olub. Yaponiya şirkəti çempionatı rəsmi olaraq tərk edib. Onun mühərriklərindən 2025-ci ilədək “Red Bull” öz brendi altında istifadə edəcək. Bu qərarın növbəti dörd ildə Formula 1-də mühərriklərin inkişafının dondurulduğu üçün verildiyi qeyd edilib. Belə olan təqdirdə dizayn departamentini cəlb etmək və vəsait yatırmaq lazım olmayacağı və bütün əmək xərclərinin “Red Bull” tərəfindən ödəniləcəyi vurğulanıb.

“Honda”nın Formula 1 üzrə nümayəndəsi Masasi Yamamoto layihədə qalacaq.

## Serbiyalı tennisçi yenidən polis tərəfindən saxlanıldı

Dünyanın bir nömrəli tennisçisi Novak Cokoviç Avstraliyada həbs olunub. Bu barədə serbiyalı idmançının atası məlumat yayıb. Həbslə bağlı təfərrüatlar hələlik açıqlanmayıb.

Qeyd edək ki, daha əvvəl Cokoviçin vizasının ləğvi ilə əlaqədar apellyasiyanı uduğu məlum olmuşdu. Buna baxmayaraq, bildirilib ki, Avstraliya hökuməti məşhur tennisçini ölkədən qova bilər. Hələlik Novak Cokoviçin Açıq Avstraliya çempionatına buraxılıb-buraxılmayacağı bilinmir.

## Azərbaycan idman ictimaiyyətinə ağır itki üz verib



Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar bədən tərbiyəsi və idman xadimi Tofiq Babanlı 2022-ci il yanvarın 10-da, ömrünün 85-ci ilində vəfat edib.

Tofiq Xanlar oğlu Babanlı 14 fevral 1937-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda davam etdirib.1960-cı ildə institutu bitirdikdən sonra Bakı Uşaq Gənclər İdman Məktəbində boks üzrə məşqçi-müəllim kimi əmək fəaliyyətinə başlayıb.

Uzun illər müxtəlif idman cəmiyyətlərində və Yüksək İdman Ustalığı Məktəbində baş məşqçi vəzifəsində çalışıb. Respublika yığma komandasına rəhbərlik edib. Yetirmələri 12 dəfə SSRİ çempionatı və birinciliklərinin qalibi və mükafatçısı olublar. Yetirməsi Kamal Babayev 1965-ci ildə Azərbaycan boks tarixində ilk dəfə olaraq, gənclərin Avropa kuboku yarışında qızıl medal qazanıb.

1989-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda pedaqoji fəaliyyətə başlayıb. 30-a yaxın elmi-metodiki əsərin, tədris vəsaitinin müəllifi olub. 1999-cu ildə dosent elmi adına layiq görülüb.

1952-1962-ci illərdə boks idman növü ilə fəal məşğul olub. Dəfələrlə Azərbaycan çempionu, SSRİ həmkarlar ittifaqı mərkəzi şurası spartakiadasının gümüş, SSRİ tələbələri universiadasının qızıl medalını qazanıb. Dəfələrlə beynəlxalq yarışların qalibi olub.

Yüksək idman nailiyyətləri və əmək fəaliyyətinə görə SSRİ idman ustası (1958), Azərbaycan Respublikasının Əməkdar məşqçisi (1965), Ümumittifaq dərəcəli hakim (1980), Beynəlxalq dərəcəli hakim (1995), Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman işçisi (1997), Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi (2006) adlarına layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin 10 oktyabr 2002-ci il tarixli Sərəncamına əsasən “Tərəqqi” medalı ilə təltif edilib. 5 noyabr 2012-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

1993-1996-cı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsində, 1996-2012-ci illərdə isə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində baş məsləhətçi vəzifəsində çalışıb. Uzun müddət Azərbaycan Boks Federasiyasının baş katibi olaraq bu idman növünün inkişafına xidmət edib.

Tofiq Babanlının əziz xatirəsi idman ictimaiyyətinin və onu tanıyanların qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin.

*Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi*

## Dünya çempionları Tallinə getməyə qorxurlar

Fransalı fiqurçular Qabriela Papadakis və Qiyom Sizeron cütlüyü Tallində təşkil olunacaq Avropa çempionatına yollanmayacaqlar. Bu barədə Fransa Buz İdman Növləri Federasiyası məlumat yayıb. Bildirilib ki, cütlük olimpiada ərəfəsində koronavirusa yoluxmaqdan ehtiyat edirlər. Qeyd edək ki, Papadakis-Sizeron cütlüyü dördqat dünya çempionu tituluna sahibdirlər. Pxençxan-2018 Qış Olimpiya Oyunlarının gümüş mükafatçıları ötən il Fransada ilin ən yaxşı idmançıları nominasiyasında birinci olublar.

Qeyd edək ki, Tallindəki Avropa çempionatı yanvarın 12-16-da təşkil olunacaq. Təxminən bir aydan sonra isə Pekində Qış Olimpiya Oyunları start götürəcək.

olimpnews.az - sizin saytınız




“Neftçi İdman Klubu”nun kollektivi qurumun idman və sağlamlıq məsələləri üzrə baş meneceri Elmar Babanlıya, atası

**Əməkdar bədən tərbiyəsi və idman xadimi Tofiq Babanlının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi “Neftçi İdman Klubu”nun idman və sağlamlıq məsələləri üzrə baş meneceri Elmar Babanlıya, atası

**Əməkdar bədən tərbiyəsi və idman xadimi Tofiq Babanlının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Bərdə Olimpiya İdman Kompleksinin direktoru Qabil Məmmədov və kompleksin kollektivi iş yoldaşları bədən tərbiyəsi və idman üzrə baş metodist

**Eldar Məhəmməd oğlu Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19